UOT-811.11-112
Səhifə: 109-113
https://doi.org/10.59849/2663-8967.2026.2.109

Şövkət Tağıyeva,
Rübabə Musayeva
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət İqtisad Universiteti
e-mail: shovkettagiyeva@gmail.com
e-mail: rubabamusayeva@mail.ru
ORCID: 0009-0003-4220-7966
ORCID: 0000-0001-6046-7106

İNGİLİS DİLİNDƏN ALINAN SÖZ VƏ TERMİNLƏRİN AZƏRBAYCAN DİLİNDƏ PARALELLİYİ

XÜLASƏ

Məqalədə Azərbaycan dilinin lüğət tərkibində işlənən ingilis dili mənşəli alınma söz və terminlər araşdırılır və onların bəzi leksik - semantik xüsusiyyətləri tədqiq olunur. İngilis dilindəki söz və terminlərə Azərbaycan dilində uyğun qarşılıq müəyyən edildiyi zaman onda ya alınmaların işlənməsinə ehtiyac qalmır, ya da paralel işlənmə hadisəsi baş verir. Məsələn, oppozisiya əvəzinə "müxalifət", vaterpol əvəzinə "su polosu", intervü əvəzinə "müsahibə", partnyor əvəzinə "tərəf müqabili" və s. bu kimi terminlərindən geniş istifadə edildiyi kimi, onların bir çoxunun paralel işlənməsi qeydə alınır.

Açar sözlər*: İngilis dili, termin, inkişaf, çoxmənalılıq, Azərbaycan dili.*

Giriş: Məlumdur ki, başqa dillərdən, deyək ki, ingilis dilindən, həmçinin digər Avropa dillərindən Azərbaycan dilinə söz o zaman keçir ki, bu dildə həmin sözün ifadə etdiyi məfhumu bildirən başqa söz olmasın və ya onun tam ekvivalent variantını dildə ifadə etmək mümkün olmasın. Məsələn: konqres, panorama, kater, kompüter, biznes, karter aysberq, telefon, meqafon, fonoskopiya, büdcə, kross, printer, ofset, menecer, lobbi, bosman, harmoniya və s. bu kimi sözlərin dilimizdə qarşılığı yoxdur. Onlar təkamül prosesi keçərək, müxtəlif səviyyələrdə mənimsənilmiş və tədricən dilin lüğət tərkibinə daxil olmuşlar. İngilis mənşəli sözlərdə baş verən dəyişikliklər Azərbaycan dilinin səs sisteminə və qrafik-qrammatik quruluşuna uyğun səviyyəsində aparılır [1, s.19]. İngilis dilindəki söz və terminlərə Azərbaycan dilində uyğun qarşılıq müəyyən edildiyi zaman onda ya alınmaların işlənməsinə ehtiyac qalmır, ya da paralel işlənmə hadisəsi baş verir.

Hər hansı bir dilin zənginləşməsində, onun lüğət ehtiyatının mükəmməlliyində alınma sözlərin böyük təsiri var. Bu xüsusilə də dilin tarixi, keçdiyi yol və inkişaf mərhələləri ilə çox əlaqədardır. Lakin dilin əsas lüğət ehtiyatı onun doğma, yəni öz tarixi mənşəyi ilə əlaqədar olan sözlərdir ki, bura alınma sözlər daxil deyil. İngilis dilinin əsas lüğət tərkibinə nəzər salsaq onu çox zəngin və geniş söz ehtiyatı olduğunun şahidi olarıq. Qədim ingilis dilində alınma sözlərin bir neçə mərhələləri müşahidə edilir. Ən qədim mənbəyə müraciət etsək bu ümumi Hind-Avropa – dillər ailəsindən bəhrələnən mərhələdir ki, burada rast gəlinən sözlər mənşə etibarı ilə digər Hind – Avropa dilləri ailəsinə daxil edilən dillərdə də rast gəlinir. Qədim ingilis dili, yeni ingilis dili, latın dili, və rus dili.

Qədim ingilis dili	Yeni ingilis dili	Latın dili	Rus dili
mödor	mother	mater	мать
beran	bear	berre	брать

Digər bir mərhələ İngilis və German dilləri qrupunun eyni German mənşəli sözləri mənimsəmələri olub ki, bu sözlərə yalnız German dilinə aid olan dillərdə rast gəlinə bilər.

Qədim ingilis dili	Yeni ingilis dili	Alman dili
Eorde land sea	Earth land sea	Erde land see

Yeni ingilis dili surətlə inkişaf etməkdədir. Hal-hazırda lüğətlərin toplusuna nəzər salsaq görərik ki, ingilis dilinin söz ehtiyatının dəqiq sayını bilmək çətindir. Sözlərin bir çoxu qədim, orta ingilis dili mərhələlərində işlənib yeni ingilis dilində bu sözlərə rast gəlinmir və yeni sözlərin sayı köhnəlmiş və işləkdən çıxmış sözlərdən xeyli sayda çoxdur. Həm daxili, həm xarici ünsürlərin təsirindən yeni alınma sözlər ingilis dilini zənginləşdirir, yeniləşdirir.

Təxmini hesablara görə 300 milyon insan ingilis dilində doğma dil kimi danışır və 100 milyon isə ondan işlə əlaqədar istifadə edir. Həyatın bir çox sahələrində, əsasən texniki elmlər, diplomatiya, turizm kimi strukturlarda bu dildən geniş istifadə edilir. 45 ölkədə ingilis dili rəsmi və qeyri rəsmi dil kimi fəaliyyət göstərir, bir çox ölkədə status kimi qəbul edilməsə də ingilis dili artıq cəmiyyətin arasında geniş nüfuz etmişdir. Tarixə nəzər salsaq görərik ki, heç bir dil bu qədər geniş vüsət almamış və dünya dilləri arasında bu qədər yayılmamışdır. Biznes müqaviləsinin demək olar ki yarısı bu dildə bağlanır. Struktur göstəricilərinə baxsaq elmi əsərlərin, jurnalların 3/2 si ingilis dilində nəşr edilmişdir. Proseslərin bu cur gedişatı dilin daha da zənginləşməsi ilə, çoxmənalılıgın inkişafı ilə nəticələnir, sözlər artıq öz etimoloji mənasından çıxaraq yeni mənalar kəsb edir.

Etimoloji sözlərin mənbəyi əsasən aşağıdakı elementlərdir:

1. Latın dili, 2. Skandinaviya dilləri, 3. Fransız dilləri.

İlk latın mənşəli sözlər ingilis dilində hələ onların əcdadlarına ünsiyyət yolu ilə keçmişdir. Bunlar xüsusi ilə gündəlik ehtiyac, tələbat mallarının adları, məişət xarakterli əşyalar daxil olmaqla ərzaq, geyim, avadanlıq kimi yeni adları əhatə edirdi. Latın dilindən alınma sözlər ingilis dilinin tarixində həm böyük rol oynamış, həm də bu günə qədər işləməkdə davam etməkdədir. Lakin bəzi mənbələrə görə, belə sözlərin əksəriyyəti latın dilinə yunan dilinin nüfuz etməsi ilə əlaqələndirilir. Məsələn, *bishop, church, devil* və s.

Bu sözlərin latın mənşəli olmaları xüsusi ilə, onların suffikslər vasitəsi ilə sübut olunur ki, feillərdə adətən *ate, ute* şəkilçisi əlamət göstəricisi kimi götürülür; *exasprute, absolute, atribute, salute, contribute: adj kimi- ant, ent, ior, al Particpiant, reluctant, evident, superident, superior* və s. İngilis sözlərinin genişlənməsinə təsir edən ikinci amil skandiviya amilidir ki, bu da VIII-X-cu əsrlərdə onların Britaniya adalarında məskunlaşmaları ilə əlaqədardır. Lakin bu sözlərin daha dəqiq mənbəyini izah etmək bir qədər çətinlik yaradır, belə ki, hər ikisi german dillərinin təsiri altında olublar; *husband, fellow, knife, leg, wing, forget* kimi sözlər bu qrupa aid edilir.

Danimarka və şimali Almaniya tayfalarının e. əvvəl V-ci əsrdə Britaniyanı işğal etməklə öz dillərini onlara mənimsətmələri nəticəsində dilin söz ehtiyatı zənginləşməkdə davam edirdi. Ardınca işğal olunmuş Kelt tayfalarının dilindən də xeyli sayda sözlər ingilis dilinə keçərək onun söz ehtiyatının zənginləşməsinə səbəb olmuşdur.

Bütün bu dediklərimiz dilin tarixi nöqteyi-nəzərindən tarixçi və dilşünas alimlər tərəfindən irəli sürülən mülahizələrdir. Bu tədqiqatların əksəriyyəti yazılı mənbələrə əsaslanır və müxtəlif alimlərin ümumiləşdirilmiş fikirlərinin nəticəsi kimi qiymətləndirilə bilər.

Lakin hər hansı bir dilin lüğət ehtiyatlarının zənginləşməsi yalnız dilin tarixi ilə məhdudlaşmayıb gün-gündən inkişaf edir, böyüyür və zənginləşir. Belə ki, bütün dillərdə olduğu kimi ingilis dilində də neologizimlərin təzahürü öz aktuallığını durmadan artırır. Oksford lüğətinin redaktor müavini Filip Durkin " ingilis dilindən başqa dillərə keçən sözlərin miqdarı ingilis dilinin

başqa dillərdən aldığı sözlərdən daha azdır" deyə ingilis dilində alınma sözlərin bu günkü vəziyyətini belə şərh etmişdir. O, bu fikirlərini daha çox qonşu ölkələrlə olan sıx münasibətlərlə əlaqələndirmiş və prosesin hər gün davam etdiyini qeyd etmişdir. Məsələn "suşi" sözünün ingilis dilində səsləndirilməsi (eşidilməsi) uzun illər bundan əvvəl olmuş, küçələrdə, supermarketlərdə, yeməkxanalarda bu sözə tez-tez gəlinirdi. Tədricən alınma söz adı altında bu söz ingilis ədəbiyyatında (qəzet, jurnal, filmlərdə, lüğətlərdə) rast gəlinməyə başladığını nümunə kimi göstərirdi. Lakin heç vaxt skandinaviya dilindən götürülmüş *leg, sky, take, tey* və ya fransız dilindən keçmiş *peace, war, fust, very* sözləri ingilis dilinin lüğət tərkibinə nüfuz edə bilməmişdir. Ona görə yox ki, bu sözlərin uzun tarixi var, ona görə ki, ingilis dilli artıq bu sözləri öz fonetik qaydalarına tabe edərək doğmalaşdırmışdır.

Müasir ingilis dilinin qlobal dil kimi çox böyük ünsiyyət vasitəsinə çevrilməsi, ondan istifadə edənlərin sayının günü-gündən artması dilin zənginləşməsinə çox böyük təsir edir. Standart dil səviyyəsindən fərqli olaraq müxtəlif ərazilərdə yaşayan ingilis dilli xalqlar öz çevrəsində ingilis dilinə yeni anlayışlar, sözlər əlavə etməkdə davam edirlər. Məsələn Yeni Zellandiya əhalisi *maori* (maori) mənşəli sözlərdən istifadə edərək onları lüğətlərinə daxil edir və bu da onların bütün dünyaya yayılmasına gətirib çıxardır; *Aroha-sympathy, understanding, kia-ora gretting or farewell; cranachan- a type of dessert; pibroch- bagpipe music*- kimi nümunələri göstərə bilərik.

Professor N.Məmmədli "Alınma terminlər" monoqrafiyasında yazır ki, buna baxmayaraq müxtəlif dillərdə, o vaxt Azərbaycan dilində də sözalma prosesi davam edirdi. Son dövrlərdəki alınmaların çoxu müasir həyatın aktual cəhətlərini əks etdirən ingilis mənşəli sözlərdir. Bu sözlər dilimizdə yayılma dərəcəsinə və işlənmə tezliyinə görə müxtəlif mövqedə durur. Onların bəziləri son illərdə Azərbaycan dilində elə məhsuldar işləkliyə malikdir ki, onlar hamının istifadə etdiyi ümumişlək sözlər qrupunda yer almaqla yanaşı, dil daşıyıcıları tərəfindən asan başa düşülür. Məsələn**,** *komfort, futbol, boks, xokkey, bifşteks, lider, lift, menecer, konvert, konteyner, dispetçer, vağzal, kloun, doker, detektiv, caz, qol, dopinq, kabel, layner, autsayder, blok, mikser, avral, ballast, banknot, boykot, bufer, büdcə, boykot, bufer, büdcə, nokaut, nokdaun, lilinut, centlmen, ballast, dollar, mogekan, pioner, mitinq, miçman, tennis, kovboy, avtokar, alliqator, barmen, buklet, kompüter, lider, boykot, spiker, şou* və s. bu kimi söz və terminlər belə alınmalardandır. [2, s. 126-132]

Başqa sözlər də müxtəlif üslublarda bu və ya digər dərəcədə istifadə olunmaqdadır. İngilis dilindən Azərbaycan dili leksikasına keçmiş bəzi alınmaların leksik-semantik səciyyəsini araşdıraq.

"Brifinq" sözü başlıca olaraq, publisist üslubda ictimai-siyasi termin kimi, ingilis-Amerika reallığı ilə əlaqədar işlənməkdədir. Bu leksik vahid Azərbaycan ümumxalq dilinə keçmədiyindən işlənməsi də məhdud xarakterdədir, bütövlükdə dilimiz üçün tam mənimsənilmiş sözlərdən hesab edilə bilər. Brifinq sözü elmi ədəbiyyatda amerikanizm (briefinq) kimi qiymətləndirilir, ingilis dilinin *to brief* feilindən yaranmış, ingilis dilinə də fransız dilindən (brif) keçmişdir. **Brief** isminin əsas mənası "qısa, yığcam" deməkdir. Bu sözün həmin mənaları Azərbaycan dilindəki "xülasə, təlimat anlayışlarına uyğun gəlir.

N.Ə.Tağızadənin "İngilis mənşəli sözlərin Azərbaycan dilində unifikasiyası" kitabında qeyd edilir "Brifinq" sözü Azərbaycan dilində dövlət nümayəndələrinin jurnalistlərlə təlimat xarakterli müşavirəsi məqamında işlədilir. Bu müşavirənin məqsədi, əslində dövlət məmurlarının çıxışlarına təbliğat istiqaməti verməkdir. Brifinq sözünün dilimizdə işlənməsi xüsusilə publisistik nitqlə məhdudlaşır. Bu söz daha çox siyasi terminlərə yaxınlaşır. N.Tağızadənin izahına görə, brifinq-xarici siyasət idarəsinin, beynəlxalq təşkilatların rəsmi nümayəndələrinin mətbuat vasitələri ilə qısa müddətli görüşüdür [3, s.303-312].

"Kompüter" - ingilis dilindəki "hesablamaq" mənalı "computer" feilindəndir. Bu leksik vahidin rus dilindəki transkripsiyası belədir: [компьютер]. Oksford lüğətinə görə, "computer" feili ingilis dilində 1961-ci ildən işlədilir. Həmin lüğətdə "computer" sözünün aşağıdakı mənaları verilmişdir: "sayan", "rəsədxanada hesablama aparan" və s. Oksford lüğətində "computer" leksik vahidinin "elektron-hesablama maşını" mənasına rast gəlirik. Bu mənaya sonrakı lüğətlərdə

təsadüf edirik. Bu lüğətdə "computer" sözünün iki mənası verilmişdir: 1) hesablayan insan, yaxud əşya ; 2) Ali riyaziyyatın mürəkkəb əməliyyatlarını yüksək sürətlə yerinə yetirməyə qadir olan mexaniki, yaxud elektron aparat. İşlənmə tezliyinə görə nə qədər yüksək olsa da, bu söz rus və Azərbaycan dillərinə aid əvvəlki lüğətlərdə qeydə alınmır. Bu da hesablama texnikası vasitəsinin ötən əsrin 80-ci illərində dilimizə keçməsi ilə əlaqədardır. [4, s.145-154]

Kondisioner. Azərbaycan dilində geniş işlədilən "kondisioner" sözü də ingilis mənşəli hesab edilir. Elmi ədəbiyyatdan məlum olur ki, həmin leksik vahid latın mənşəli "condicio" sözündəndir. Alman dilində "konditionekunq" şəklində məişətimizdə istifadə edilir. "Kondisioner" sözünün lüğəti mənası "qapalı yerlərdə ətraf mühitdən asılı olmayaraq, müəyyən iqlim şəraitinin saxlanması" kimi izah edilir. "Kondisioner" sözü Azərbaycan dilində keçən əsrin 60-cı illərində işlənməyə başlanmışdır. Bu söz maraqlı inkişaf yolu keçmişdir. Belə ki, lüğətlərdə onun ilkin mənası "sənayedə məhsulun müəyyən temperaturda saxlayan aparat" mənasında verilmişdir. Sonrakı lüğətlərdə kondisioner sözü "qapalı yerlərdə temperaturun, nəmişliyin və havanın tərkibinin lazımi səviyyədə tənzimlənməsi" kimi şərh edilmişdir. Azərbaycan dilində kondisioner sözü daha çox ikinci mənada geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, ötən əsrin 70-ci illərində Bakıda məişət kondisionerləri zavodu tikilib istifadəyə verilmiş, zavodda müxtəlif markalı kondisionerlər istehsal olunmuşdur. Bu avadanlıq məişətimizdə geniş istifadə olunmaqdadır.

Ledi (lady"leidi")-İngiltərədə, lordun arvadına, eləcə də aristokrat təbəqəyə mənsub yaşlı ərli qadınlara müraciət formasıdır. Miledi (miledi"mileidi")-İngiltərədə yuxarı təbəqənin ərdə olan nisbətən cavan yaşda olan qadınlarına hörmət və ehtiramla edilən müraciət formasıdır. Milord (Milord"milo:rd")-İngiltərədə yüksək təbəqədən olan kişilərə müraciət formasıdır. Xarici sözlər lüğətində "ledi" ingilis mənşəli söz kimi verilmişdir.

Nəticə: Beləliklə, rus, eləcə də Azərbaycan dilindəki ingilis sözlərinin ayrılması, nəşri, yaranma tarixi və etimologiyasını hərtərəfli öyrənmək çətinlik yaradır. İngilis dilinin lüğət tərkibi yekcins olmayıb, xalis ingilis leksikası digər german dilləri ilə paralellik təşkil edir. Tərcümə yolu ilə ingiliscədən alınmış sözlərin elələri vardır ki, onlar istər ingilis, istərsə də Azərbaycan dilinin müasir dövründə işlək deyildir. Lakin bu sözlər hər iki dilin lüğət tərkibində qalır və ara-sıra işlənir. Bu tipli sözlərin müasir funksiyasının aydın başa düşmək üçün konkret tədqiqat işi aparmaq lazımdır. Nəhayət, bir çox dillərdə olduğu kimi ingilis dili də bir tərəfdən digər xalqların dilindən sözlər alır, digər tərəfdən isə sözlər başqa xalqlara ötürülür. Bu bir qarşılıqlı prosesdir, həmişə də əsrlər boyu davam edib, indi isə daha sürətlə inkişaf edir. Texnikanın inkişafı sözlərin daha çox geniş vüsət alınmasına imkan yaradır. Eyni fikri Azərbaycan dilinə də aid etmək olar. Bu günkü Azərbaycan dilində olan yeni sözlərin işlənmə sayı əvvəlki olar. Bu çox sevindirici haldır ki, deməli bizim dilimizin inkişafı regional durumdan, beynəlxalq əlaqələrin inkişafından bəhrələnməyi bacarır.

Ədəbiyyat siyahısı

1. Ə.Qarayev. "Müasir Azərbaycan dilində Avropa mənşəli alınmalar", ADU n.1989. s.19.
2. N.Məmmədli. "Alınma terminlər". Bakı, "Nurlan" nəşr. 1997. s.126-132.
3. N.Ə.Tağızadə. "İngilis mənşəli sözlərin Azərbaycan dilində unifikasiyası". "Filologiya məsələləri" toplu. ADPU. Bakı-2003. s.303-312.
4. Р.Д.Джафаров. "Технические термины западноевропейского происхождения в Азербайджанском языке" А.Р.к.ф.н. Баку, 1990. с.145-154.

Шовкат Тагиева,
Рубаба Мусаева

Параллели слов и терминов английского происхождения в азербайджанском языке и этимология некоторых производных слов.

Резюме

В статье рассматриваются заимствованные слова английского происхождения употребляющееся в словарном составе азербайджанского языка, атаке некоторые лексического и семантического свойства английских терминов в азербайджанском языке.

В статье также рассматриваются заимствованные слова и термины английского происхождения, используемые в лексике азербайджанского языка, а также анализируются некоторые их лексические и семантические особенности. При определении соответствующих эквивалентов английских слов и терминов в азербайджанском языке либо отсутствует необходимость в использовании заимствованных слов, либо наблюдается параллельное их использование. Например, широко распространены такие термины, как «оппозиция» вместо «оппозиция», «водное поло» вместо «водное поло», «интервью» вместо «интервью», «партнер» вместо «партнер» и т. д., что свидетельствует о значительном параллельном использовании многих из них.

***Ключевые слова**: английский язык, термин, развитие, полисемия, азербайджанский язык.*

Shovkat Taghiyeva,
Rubaba Musayeva

Parallels of words and terms of English origin in the Azerbaijani language and the etymology of some derivative words

Summary

The article analyses mutual word of English origin words used in the vocabulary of Azerbaijan also some lexical of semantically pecularatif of English turns in Azerbaijani.

When the corresponding equivalent of English words and terms is determined in the Azerbaijani language, either there is no need to process borrowings, or parallel processing takes place. For example, the terms opposition instead of opposition, water polo instead of water polo, interview instead of interview and partner instead of partner are widely used, and parallel processing is fixed for many of them. Borrowed words and terms of English origin used in the vocabulary of the Azerbaijani language are considered in the article, and some of their lexical and semantic features are analyzed. When determining the corresponding equivalents of English words and terms in the Azerbaijani language, either there is no need to use borrowed words, or there is a parallel use of them. Par example, such terms as "opposition" instead of "opposition", "water polo" instead of "water polo", "interview" instead of "interview", "partner" instead of "partner" etc.are widely spread. д., which indicates significant parallel use of many of them.

***Key words:** English language, term, development, polysemy, Azerbaijani language.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dövlət İqtisad Universiteti***

Rəyçilər: ***fil.ü.f.d.,dosent R.Cəfərov***
fil.üz.f.d.,dosent S.Bağırova